# NƏSRƏDDİN ŞAH



1-6

## İŞTİRAK EDİRLƏR

Mirzə Rza Kirmani
Gülzar – Mirzə Rzanın qızlığı
Nadir – Mirzə Rzanın oğlu
Sitarə – Mirzə Rzanın qızı
Fərhad – Mirzə Rzanın qardaşı oğlu
Nəsrəddin şah
Rəhim xan
Cavad xan
Məhəmməd xan
Mirzə Saleh
Mirzə Sadıq xan
Mirzə Təqi xan
Mirzə Ağa xan
Cəmaləddin Əfqani – fədailər başçısı
Mirzə Mülküm xan
Mirzə Ələsgər xan
Məmiş
Kazım
Mehdi
İbiş
Həsən – fədailər
Qulam
Molla Sübhan
Salman – Mirzə Rzanın kəndlilərindən
Birinci şikayətçi
İkinci şikayətçi
Fərraş
Fərraşlar, kəndlilər, ərizəçilər və başqaları



## BİRİNCİ PƏRDƏ

Məclis vaqe olur Kirman kəndlərinin birində. Mirzə Rzanın otağı. Solda bir pəncərə, sağda və dalda bir qapı. Otaq köhnə xalı və sadə şeylərlə bəzənmiş. Divarda iki tüfəng, iki patrondaş. Çox varlı və çox da kasıb olmayan bir İran xanının evidir.

S i t a r ə *(daxil olur. Oyan-buyana baxır).* Görürsünüzmü, məlun Gülzar yenə də qaçıbdır. Gülzar, ay Gülzar!.. *(Gedib qapı ağzından çox sevincək çağırır.)*

G ü l z a r *(eşikdən).* Bəli, xanım! Bəli!..

S i t a r ə *(qapının dalında gizlənir, Gülzar daxil olanda Sitarə onun boğazından yapışır).* Ay qız, tutum boğum səni?.. Haraya qaçmışsan! *(Gülüb onu qucaqlayır.)*

G ü l z a r. Vallah, Sitarə, bu gün heç özündə deyilsən.

S i t a r ə. Vallah, ürəyim bu gün bərk sıxılır; yox, darıxıram. Ürəyim bir haldadır ki, bilmirəm şadlanıram ya ki, sıxılıram.

G ü l z a r. Mən bildim sənin halın necədir və nə üçün elədir. İstəyirsən söyləyim?

S i t a r ə. Yaxşı, söylə. Amma bilirsən necə sevinirəm!.. Elə bil ki, anadan indi olmuşam, ancaq ürəyimdə gizlin bir qorxu var, o bilmirəm nədəndir. Bir kəlmə, bu halım ya şadlıqdır və ya bədbəxtlik. İnşallah ki, şadlıqdır.

G ü l z a r. Dayan, dayan, mən söyləyim. Bax, bu gün sənin əmin oğlu, sevdiyin Fərhad, Firəngistandır, nədir, oradan gəlir. Düz bir ildi ki, üzünü görə bilmirdin. Yalnız onun eşqi, onun xəyalı ilə yaşayırdın. İndi o, dərsini qurtarıb gəlir. Bilirsən də ki, o gələn kimi sənin üçün toy olacaq. Onun üçün sevinirsən. Amma ürəyin tələsməkdən darıxırsan. Tapdım, ya yox, düzünü degilən?

S i t a r ə. Vallah, elədir ki, var. Özümdən də artıq sevdiyim bir oğlanı bu gün görəcəyəm. Şadlığım onun üçün olmayıb, bəs,